

# Möhtəşəm 20 il

"Mən möhtərəm Prezidentimiz Heydər Əliyevin hörmətli İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin olunması ilə əlaqədar Milli Məclisə etdiyi müraciəti, demək olar ki, bütün Azərbaycan xalqının ürəyindən gələn istəkdən qaynaqlanan bir addım kimi qiymətləndirirəm. Bu sözlərin təsdiqi kimi burada gündəlik elan olunarkən Azərbaycan Respublikası Milli Məclisinin bütün deputatlarının alqışlarını misal gətirmək istəyirəm. Eyni zamanda onu bildirmək istəyirəm ki, əgər bu məsələ ümumxalq müzakirəsinə qoyularsa, əminliklə deyirəm - bütün xalq bu təklifi beləcə alqışla qarşılayacaqdır. Ona görə ki, Azərbaycan xalqı Heydər Əliyevin siyasi xəttinin, onun müəyyənləşdirdiyi siyasətin ən layiqli davamçısı kimi məhz İlham Əliyevi görür".

20 il bundan əvvəl İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi ilə əlaqədar ölkə Prezidenti Heydər Əliyevin Milli Məclisə təqdimatının müzakirəsi zamanı çıxışımın kisik bir hissəsini xatırlatmaqda məqsədim bu təyinatın böyük çağırışlarla yanaşı, həm də nəhəng iqtisadi sıçrayışlar fürsəti ilə üzüzə dayanan gənc Azərbaycan dövlətinin gələcək həyatını kökündən dəyişdirən uğurlu islahatlar yolunda dahi Heydər Əliyevin növbəti addımı olduğunu qeyd etməkdir. 20 ildir Azərbaycan xalqı Heydər Əliyevin tarixi seçiminin və qərarının faydalarından bəhrələnməkdədir.

→ 3



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

*Əvvəli 1-ci səh.*



# Möhtəşəm 20 il

## Ulu Öndərin tarixi seçimi

Tarixi şəxsiyyətlər statusuna yüksəlmiş liderlərin öz üzərinə götürdükləri missiyanı, bir qayda olaraq, onun sədaqətli ardıcılları davam etdirirlər. Ölkəmizin suverenliyinin xilaskarı və müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin davam etdirilməsi mahiyyətcə müstəqilliyin qorunub saxlanılması, yeni cəmiyyət quruculuğunun davam etdirilməsi, ölkənin təhlükəsizliyinin və xalqın rifahının təmin edilməsi, Qarabağın işğaldan azad edilməsinə nail olunması kimi həllini gözləyən vəzifələrin yerinə yetirilməsi formasında başa düşülür və qəbul edilirdi. Heydər Əliyevin hakimiyyətə qayıdışına qədər ağır və uzunsürən iqtisadi və siyasi böhranlar, mənəvi sarsıntılar zolağından keçən Azərbaycan cəmiyyəti Ulu Öndərin yaratdığı sabitliyi, əmin-amanlığı, nikbinliyi yüksək qiymətləndirir, ölkənin gələcək taleyini bu uca dəyər və nemətlərdən ayrılıqda təsəvvür etmirdi. Digər tərəfdən isə, Ulu Öndərin ölkənin və xalqın gələcək taleyi qarşısında böyük mənəvi məsuliyyəti kimi ciddi amil diqqətdən qaçırılmamalıdır. 20 illik tarixi təcrübənin dəyərləndirilməsi əsasında tam əminliklə demək mümkündür ki, Azərbaycanın gələcəyi ilə bağlı xalqın rəyi və Ümummilli Liderə etibarı nəinki üst-üstə düşür, hətta bir-birini tamamlayırdı. Heydər Əliyev Azərbaycanın gələcəyi ilə bağlı düşüncə və baxışlarını aydın şəkildə cəmiyyətə təqdim edə bilmişdi və toplum da öz növbəsində bu baxışlara sadiqliyini çox müxtəlif şəkildə təzahür etdirmişdi. Dahi Liderin tarixi seçiminin birinci vəzifəsi bununla da öz həllini tapmış sayıla bilərdi və əslində, sayılırdı.

Heydər Əliyevin ölkənin gələcəyi ilə əlaqədar seçiminin ikinci vəzifəsi onun əsasını qoyduğu tarixi missiyanı davam etdirməyə qadir olan  və hamını qane edən namizədin tapılmasında ifadə olunurdu. Bunsuz dahi liderin reallaşdırmalı olduğu seçimin tamlığının təmin edilməsi mümkün deyildi. Hesab etmək olar ki, 2003-cü il avqust ayının 4-də İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi sözügedən seçim istiqamətində atılan ilk real addım sayıla bilər. Bununla da toplumda həmin ilin oktyabr ayında keçiriləcək prezident seçkilərində Heydər Əliyevi əvəz edə biləcək namizədin irəli sürülməsi ehtimalları və effekti yaratmaq mümkün oldu. Seçkiöncəsi ictimai rəy və ovqatı xatırlasaq, Heydər Əliyevin seçiminin bütünlüklə təqdir edildiyini, bəyənildiyini və seçici kütləsinin düşüncələri ilə üst-üstə düşdüyünü söyləmək mümkündür.

İlham Əliyevin Heydər Əliyev siyasətinə sədaqəti tam aydın şəkildə dərk edilir və bütünlüklə etiraf olunurdu. Azərbaycan Dövlət Neft Şirkətində vitse-prezident vəzifəsində fəaliyyəti, xüsusilə də "Əsrin müqaviləsi"nin imzalanmasında müstəsna xidmətləri, Avropa Şurasının Parlament Assambleyasının vitse-prezidenti vəzifəsində ölkəmizin maraqları naminə nümayiş etdirdiyi fədakarlıq, Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsində Azərbaycan idmanının inkişafına verdiyi fövqəladə töhfələr cəmiyyətə onun yüksək bacarığının, intellektinin və təhsilinin təqdim olunmasında əvəzedilməz rol oynamışdı. İlham Əliyev ölkəmizin böyük potensiala və gələcəyə malik olan gənc nəslinin parlaq nümayəndəsi kimi toplum tərəfindən tanınır və qəbul edilirdi. Onun cəmiyyətdə rəğbətlə qarşılanan mənəvi xüsusiyyətləri və cəlbedici obrazı Heydər Əliyevin seçiminə əlavə etibarlılıq effekti yaradır, obyektiv zərurətdən  qaynaqlandığını təsdiq edirdi.

İstənilən seçimin ən etibarlı sınağı praktika hesab olunur. Böyük şəxsiyyətlərin seçiminin sınaq meyarı tarixdir. Dahi siyasətçi Heydər Əliyevin 20 il bundan əvvələ təsadüf edən qərarının böyük mənası və obyektiv zərurətdən qaynaqlanması Prezident İlham Əliyevin möhtəşəm uğurları sayəsində tarixin yeganə həqiqi sınağından layiqincə çıxmağa müyəssər oldu. Ölkəmiz tarixdə heç zaman görünməmiş inkişafına qovuşdu, möhtəşəm qələbə və zəfərlər çaldı. Azərbaycan isə ona bir çox parlaq səhifələr bəxş edən yeni əzəmətli siyasətçi və dövlət xadimi qazandı.

## Xalqın etimadı və ümidi

20 il əvvəl Ulu Öndər Heydər Əliyev böyük səylər və fədakarlıqlar sayəsində qurduğu müstəqil Azərbaycan dövlətinin gələcək uğurlu taleyinin təminatı barədə seçim etmək zərurəti qarşısında qaldığı kimi, Azərbaycan xalqı da növbəti seçim qarşısında idi. Xalqın 10 il əvvəlki seçimi - Heydər Əliyevin hakimiyyətə dəvəti  ölkəni real dağılmaq təhlükəsindən qurtardı, Azərbaycanda müstəqil dövlət quruculuğunun uğurla başa çatdırılmasını təmin etdi. İnsanlar öz taleyinə sahib çıxmağın faydalarını nəinki ictimai həyatda, həm də hər bir ailənin həyatında baş verən pozitiv dəyişikliklər nümunəsində aydın şəkildə dərk edirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərinin Azərbaycanı Heydər Əliyevin prezident seçilməsindən sonra cəmi 10 il ərzində bütünlüklə dəyişmiş, sabitliyin, əmin-amanlığın, dərin iqtisadi islahatların geniş vüsət aldığı yeni Azərbaycana transfer etmişdi. Ulu Öndərin uğurla həyata keçirdiyi neft strategiyası əhalidə ölkənin parlaq gələcəyinin aydın təsəvvür edilməkdə olan mənzərəsinin formalaşmasını təmin etmiş və bu zəmində cəmiyyətin yeni keyfiyyət halına keçidə hazırlaşdığı ümidlərini yaratmışdı. Demokratik və iqtisadi keçid mərhələsi cəmiyyəti kimi özünü təsdiq etmiş Azərbaycanın gələcək inkişaf perspektivləri təbii olaraq hər bir vətəndaşın diqqət mərkəzində dayanaraq onun siyasi və ictimai ovqatını təyin edən əsas amillərdən sayılırdı. Bu isə öz növbəsində Heydər Əliyevdən sonrakı dövrün lideri ilə əlaqədar ictimai seçimin həlledici siyasi ölçüsü funksiyasını yerinə yetirirdi.

Qeyd etmək yerinə düşər ki, 1993-cü ildə Heydər Əliyevin Azərbaycanın Prezidenti seçilməsi əhalinin mütləq əksəriyyətinin obyektiv tarixi zərurəti ifadə edən rəy və çağırışlarının nəticəsi olduğu kimi, 2003-cü ildə İlham Əliyevin ölkənin siyasi həyatının həlledici amilinə çevrilməsi də köklü obyektiv əsaslara söykənirdi. Xalqın Ulu Öndərin siyasi kursunun alternativsizliyini qeyd-şərtsiz qəbul etməsi ilə onun siyasətini ən uğurlu şəkildə yerinə yetirə biləcək siyasətçi rolunda İlham Əliyevin nəzərdən keçirilməsi və qəbul edilməsi bu fikrin təsdiqi baxımından həqiqət meyarı sayılacaq dərəcədə inandırıcı və qətidir.

Xalqın İlham Əliyevə inamı və etimad göstərmək niyyəti dövrün ictimai reallığının aydın şəkildə müşahidə edilən ümidverici mənzərəsidir. İnsanlar onun yuxarıda sadalanan keyfiyyətləri və bacarıqlarına görə bu gənc siyasətçini Ulu Öndərin layiqli davamçısı kimi görür, qiymətləndirir və dərk edirdilər. Hesab edirəm ki, İlham Əliyevə xalqın etimadı və inamının mənbəyini axtarmalı olsaq, ilk növbədə məhz deyilənləri göz önünə gətirmək lazım gələr.

İlham Əliyevin 2003-cü ilin avqustunda Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi və ardınca prezident seçkilərinə qatılması əhalinin ona olan etimadının vüsətini və dərəcəsini aydın şəkildə təsəvvür etməyə imkan yaratmış oldu. Eyni zamanda İlham Əliyevin dəqiq hədəfləri və proqramı ilə fərqlənən seçki strategiyası ona olan xalq etimadının və inamının daha da möhkəmləndirilməsi imkanları baxımından qiymətləndirilə bilər. Kampaniyanın gedişi Heydər Əliyevin siyasi davamçısına seçici etimadı və inamı dinamikasının davamlı surətdə artmasını aydın şəkildə sübuta yetirirdi. İlk mərhələdə ona Heydər Əliyevin siyasi kursunun davamçısı kimi baxan və bu cəhəti İlham Əliyevə səs vermək üçün yetərli sayan əhali seçki kampaniyasının gedişində həm də bu gənc siyasətçinin timsalında ölkənin yeni inkişaf mərhələsinin memarını görüb dəyərləndirmək imkanı qazandı. İlham Əliyevin "Mən hər bir azərbaycanlının prezidenti olacam" və "Mən Azərbaycanın yaxşı prezidenti olacam" tezisləri ölkədə seçki ovqatına və bu tezislərin müəllifinə etimadın daha da möhkəmləndirilməsinə bilavasitə təsir göstərmək potensialını nümayiş etdirirdi.

Azərbaycanın son 20 ilinin əzəmətli inkişafının fundamenti özünün hərtərəfli təcəssümünü Ulu Öndərin müstəqil dövlət quruculuğu konsepsiyası ilə bərabər, həm də İlham Əliyevin 2003-cü ildə seçki platformasında irəli sürdüyü ideyalarda və konkret proqramlarda tapır desək, güman edirəm ki, səhvə yol vermərik. Həmin platformada yer tutan 5 ildə 600 min yeni iş yerinin yaradılması, ozamankı Azərbaycanın acı mənzərəsinin nümunəsi olan çadır şəhərciklərinin aradan qaldırılması və bu kimi konkret, konkret olduğu qədər də əzəmətli təsir bağışlayan vəzifələrin cəsarətlə bəyan edilməsi İlham Əliyevin prezidentliyi dövründə inkişafın yeni ölçüləri barədə aydın təsəvvürlər yaradırdı. Sadalanan cəsarətli ideyalar və proqramlar xalqın İlham Əliyevə olan inamını əhəmiyyətli dərəcədə möhkəmləndirir, insanların həm ölkənin, həm də özlərinin və ailələrinin gələcək həyatı ilə bağlı ümid üfüqlərini genişləndirirdi. Artıq hər kəs ona dərindən inanmaqla bərabər, eyni zamanda ümid qaynağı kimi münasibət sərgiləyirdi.

## Böyük yüksəliş illəri

İlham Əliyevin böyük ideyaları, praqmatik yanaşma tərzi və cəsarətli addımları XXI əsrin əvvəllərindən etibarən Azərbaycanı əzəmətli iqtisadi sıçrayışa hazırlayan səbəblərin kökündə dayanırdı. Heydər Əliyevin dövründə həyata keçirilən islahatlar, xüsusilə də iqtisadi liberallaşdırma və "Əsrin müqaviləsi" sayəsində reallaşdırılan neft strategiyası ölkənin keyfiyyətcə yeni mərhələyə keçməsinə etibarlı zəmin hazırlamışdı. Ölkədə qərarlaşan siyasi sabitlik, vətəndaş həmrəyliyi, Azərbaycanın yeni beynəlxalq imicinin formalaşması sosial-iqtisadi keçidin yeni mərhələsini şərtləndirən digər amillər kimi özünü büruzə verirdi. Sıçrayış üçün yetərincə resurslar və ideyalar formasında toplanmış enerji kütləsi gənc liderin müdrik qərarlarını və təmkinli idarəçiliyini gözləyirdi. Məhz bunlar inkişafın yeni mərhələsini xəyaldan gerçəkliyə çevirdi və Azərbaycan İlham Əliyevin rəhbərliyi altında dünyanın ən uğurlu gənc dövləti kimi şərəfli ada layiq görüldü.

İlham Əliyevin ölkəmizin sosial-iqtisadi inkişafının keçidini təmin etməkdən ibarət olan strategiyası sistemlilik, ardıcıllıq, səmərəlilik və müasirlik kimi parametrləri ilə seçilməkdədir. Bunu Azərbaycanı inkişafa və yeniləşməyə aparan vizyon kimi də səciyyələndirmək mümkündür.

Uzunmüddətli inkişaf məqsədlərinin həyata keçirilməsi onun möhkəm zemininin hazırlanmasından ayrı təsəvvür edilə bilməz. İlham Əliyevin hakimiyyətinin ilk dövründən start götürən genişmiqyaslı quruculuq və abadlıq strategiyasının arxasında dayanan həqiqi niyyətin inkişaf naminə müasirləşmə formulu olduğunu sübut etməyə düşünürəm ki, ehtiyac duyulmur. Ölkədə müasir və funksional infrastrukturların yaradılması - yolların çəkilməsi, körpülərin salınması, enerji güclərinin artırılması, nəqliyyatın işinin nizama salınması, şəhərlərin və kəndlərin simasının dəyişdirilməsi çoxhədəfli proqramın klassik nümunəsi sayılmağa layiqdir. O, həm yeni iş yerlərinin yaradılmasını, həm biznes mühitinin təkmilləşdirilməsini, həm iqtisadi və sosial modernləşməni, həm də ölkənin simasının dəyişdirilməsi əsasında imicinin yeniləşdirilməsini özündə ehtiva edir.

Altyapı proqramının uğurla həyata keçirilməsi və onun nəticəsində cəmiyyətin ictimai ovqatında müşahidə edilməyə başlayan pozitiv məqamlar sosial-iqtisadi keçid strategiyasının yeni mərhələsinə start verilməsinə zərurət hazırlamış oldu. Sənayenin, kənd təsərrüfatının, xidmət sahələrinin inkişafı, ölkəyə yeni texnologiyaların gətirilməsi, istehsal xarakterli iş yerlərinin yaradılması iqtisadi gündəliyi zəbt edən yeni vəzifələrə çevrildi.

Sürətlə yeniləşən, yüksək iqtisadi artım nümayiş etdirən Azərbaycanın beynəlxalq inteqrasiyadan kənarda qalması təsəvvür edilə bilməzdi. Ölkənin Heydər Əliyevin neft strategiyasından başlayan beynəlxalq iqtisadi inteqrasiyasının yeni inkişaf mərhələsinə qədəm qoyması qaçılmaz zərurət olmuşdu. Enerji daşıyıcıları ixracında ifadə olunan beynəlxalq iqtisadi əlaqələrin yeni şaxəsi - nəqliyyat-kommunikasiya inteqrasiyası Azərbaycanın dövlətlərarası iqtisadi əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirərək ona yeni fürsətlər təmin etdi. Ölkəmiz zəngin enerji qaynaqları mərkəzi kimi tanınmaqla yanaşı, İlham Əliyevin rasional düşüncəsinin məhsulu olan beynəlxalq nəqliyyat qovşağı statusuna da sahiblənmiş oldu. Azərbaycanın simvolu kimi qəbul olunan Bakı-Tbilisi-Ceyhan neft boru xətti ilə bərabər, ölkəmiz özünü beynəlxalq icmaya TAP və TANAP kimi qaz kəmərləri sistemi, Bakı-Tbilisi-Qars dəmir yolu şəbəkəsi ilə təqdim etmək imkanı qazandı.

İlham Əliyevin sosial-iqtisadi keçid konsepsiyası yüksək texnologiyaların tətbiqi və iqtisadiyyatın rəqəmsallaşdırılmasından ibarət olan ən müasir inkişaf istiqamətlərindən ayrılıqda təsəvvür edilmir və edilə bilməz. Məhz onun uzaqgörənliyi sayəsində Azərbaycan dünyanın yüksəknüfuzlu kosmos ölkələri klubunun üzvü olmuşdur. Rəqəmsallaşma, "ağıllı" şəhər və kəndlər konsepsiyası ölkəmizin müasir və gələcək həyatının ayrılmaz atributları sayılır.

Yeni, daha yüksək sosial inkişaf səviyyəsinə keçid, sosial ədalətə əsaslanan ictimai ahəngdarlığın və həmrəyliyin təmin edilməsi İlham Əliyevin keçid konsepsiyasını tamamlayan və müstəsna əhəmiyyət kəsb edən komponentlərdir. Yoxsulluğun 10 dəfəyədək azaldılması, əhalinin rifah səviyyəsinin dəfələrlə yüksəldilməsi, sosial müdafiə sisteminin ciddi şəkildə gücləndirilməsi, təhsilin və səhiyyənin inkişafının dövlətin prioritetləri dərəcəsinə yüksəldilməsi, əhali məmnunluğunun hökumətin siyasətinin başlıca meyarı hesab edilməsi Azərbaycanın bölgənin ən cazibədar ölkəsi statusunu qəti şəkildə təmin etmişdir.

Sadalanan iqtisadi və sosial nailiyyətlər ölkənin beynəlxaq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəlməsinə təsirsiz ötüşə bilməzdi və təbii ki, ötüşmədi. Azərbaycanın son 20 illik tarixi Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, dünyanın BMT-dən sonra ən kütləvi  təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməsi, bir sıra ən mötəbər beynəlxalq forum və toplantıların təşəbbüskarı qismində çıxış etməsi və s. kimi parlaq hadisələrlə zəngindir. Bütün bunların qaçılmaz akkordu isə, heç şübhəsiz, 30 il davam edən erməni işğalına son qoyulması, Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, Azərbaycanın qalib dövlət fəxri adını qazanmasıdır.

## Qarabağın yeni taleyi və tarixi

Qarabağ mövzusu ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərindən etibarən Azərbaycan siyasətinin mərkəzində dayanmaqdadır. Ermənistanın Azərbaycana hərbi təcavüzü və onun nəticəsi olaraq torpaqlarımızın 20 faizinin işğal edilməsi, yüz minlərlə vətəndaşın öz dövlətində məcburi köçkünə çevrilməsi yenicə müstəqilliyinə qovuşmuş ölkənin siyasi həyatının mənasında və hədəflərində tamamilə fərqli mənzərənin meydana gəlməsinə səbəb olmuşdu. Qarabağ mövzusundan kənarda siyasət və siyasi fəaliyyətin mövcudluğunu təsəvvür etmək mümkün deyildi. Sabitlik və əmin-amanlıq kimi anlayışlar Qarabağ mövzusunun orbitindən çıxmağa nail ola bilmirdi. Ölkənin və hakimiyyətin taleyi demək olar ki, bütünlüklə Qarabağ ətrafında cərəyan edən hadisələrdən asılı vəziyyətə düşmüşdü. Mövzunun eyni zamanda siyasi çəkişmələr alətinə çevrilməsi vəziyyətin daha da ağırlaşması ilə müşayiət olunurdu. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələnə qədər hakimiyyət situasiyanı idarə etmək əvəzinə, situasiya hakimiyyəti idarə edirdi. İşğalın dəf edilməsi, müharibənin dayandırılması əvəzinə onların hər ikisindən siyasi dividendlər əldə etmək naminə faydalanmaq siyasi davranışın aparıcı meylini təşkil edirdi. Azərbaycan bir yandan müharibə və onun acı nəticələrindən, digər yandan isə müharibə mövzusunun aramsız olaraq istismar edilməsindən əzab çəkirdi.

Heydər Əliyevin tarixi qayıdışı Qarabağ mövzusunun siyasi məqsədlərlə istismarına birdəfəlik son qoydu, müharibənin dayandırılması, işğalın aradan qaldırılması dövlətin, hakimiyyətin və cəmiyyətin ən əsas məqsədi, xalqın ümummilli vəzifəsi dərəcəsinə qaldırıldı. Problemin dərk edilməsi, qiymətləndirilməsi və həllinin bütünlüklə yeni konsepsiyası işlənib hazırlandı. Atəşkəsin elan olunması, Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzünün və onun nəticələrinin beynəlxalq icmanın diqqətinə çatdırılması sayəsində işğalın beynəlxalq səviyyədə pislənməsinə nail olunması, nizami ordunun yaradılması və onun döyüş qabiliyyətinin gücləndirilməsi, cəmiyyətdə milli birliyin və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi ölkənin ərazi bütövlüyünün təmin edilməsi konsepsiyasının ayrı-ayrı vəzifələri və mərhələlərini təşkil edirdi. Heydər Əliyevin 10 illik prezidentliyi dövründə sadalanan vəzifə və hədəflərin bir çoxu həllini tapdı, erməni işğalının aradan qaldırılması sahəsində etibarlı bünövrə yaradıldı.

İlham Əliyevin müstəsna tarixi xidmətləri sırasında Qarabağın işğaldan azad edilməsi, onun yeni taleyinin təyin edilməsi, yeni tarixinin yazılması ön sırada dayanır. Etiraf etmək lazım gəlir ki, bu tarixi missiyanın yerinə yetirilməsi ardıcıl, davamlı, sistemli və səbirli siyasətin uğurlu nəticəsi olaraq meydana çıxıb. Prezident  İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən çox olacaq" şəklində ifadə etdiyi proqram Qarabağın işğaldan azad olması ilə əlaqədar strategiyanın ana xətti hesab oluna bilər. Düşmənə qalib gəlməyin yeganə düzgün yolu ondan güclü olmağı bacarmaqdır. İlham Əliyevin 44 günlük Vətən müharibəsində möhtəşəm zəfərimizin müəllifi olmasının həlledici səbəbi Ermənistandan daha güclü Azərbaycan, erməni ordusundan daha qüdrətli Azərbaycan Ordusu yarada bilməsi sayılmalıdır və sayılır.

Qarabağın 30 illik işğalına son qoyan Zəfərimizin tarixi mənası və əhəmiyyəti yalnız Azərbaycan miqyasları ilə məhdudlaşmır. O, daha böyük missiyanı daşıyır, Cənubi Qafqazda sülhü və əməkdaşlığın etibarlı zəmini rolunu oynayır. O, eyni zamanda bütün dünyada hərbi təcavüzlərə, etnik təmizləmələrə, haqsızlıq və ədalətsizliyə qarşı uğurlu mübarizə nümunəsi kimi də böyük məna və tarixi missiya daşıyır.

Qarabağın azad edilməsi onun yeni tarixinin və taleyinin yalnız bir hissəsini təşkil edir. Münaqişənin başa çatması, işğalçı ordunun Azərbaycan torpaqlarından qovulması müasir tarixin rastlaşmadığı vəhşiliyin üstünü açıb bəşəriyyətə nümayiş etdirdi. Xarabalığa çevrilən şəhərlər və kəndlər, yerlə bir edilən evlər, məktəblər və xəstəxanalar, təhqir olunan məscidlər erməni işğalının acı nəticələri olmaqla yanaşı, həm də Azərbaycan hökumətinin Qarabağın yeni tarixini yaratmaq sahəsində vəzifələrinin miqyaslarını göstərməkdədir. Quruculuq və abadlıq işlərinin miqyasına, böyük zaman və vəsait tələb etməsinə baxmayaraq, Azərbaycan vətəndaşları ilk növbədə isə 30 illik ayrılıqdan sonra doğma torpaqlarından qayıtmağın həsrətində olan keçmiş məcburi köçkünlər qəti əmindirlər ki, Qarabağı tamamilə yeni tale və tarix gözləyir. Bu inamın kökündə Prezident İlham Əliyevin səsləndirdiyi "Qarabağ nəinki Azərbaycanın, bütün dünyanın ən gözəl yaşayış məskəni olacaq" mesajı dayanır. Bu gün artıq o yeni tarixin və taleyin ilk mənzərələri yaranmaqdadır. Füzulidə, Zəngilanda beynəlxalq aeroportların tikilib istifadəyə verilməsi, yerlə bir edilmiş şəhərlərin və kəndlərin yerində ən müasir yaşayış məskənlərinin - "ağıllı" şəhərlərin və kəndlərin tikilməsi, Qarabağın böyük tikinti meydançasına çevrilməsi Azərbaycan xalqını nikbin ruhda kökləyən real addımlardır.

Yeni Qarabağın timsalında Prezident İlham Əliyevin növbəti möhtəşəm əsəri yaranmaqdadır. Azərbaycanın ən yeni tarixinin yeni şərəf səhifəsi yazılır. Bunun ölkəmizin son 20 illik tarixinin ən parlaq səhifələrindən birini təşkil edəcəyinə zərrə qədər də şübhə yoxdur.

## Etibarlı gələcəyin memarı

Siyasətçilər, bir qayda olaraq, növbəti seçki naminə, liderlər isə tarix naminə çalışırlar. İlham Əliyevin fəaliyyətində müşahidə edilən başlıca motivasiya böyük tarixi məna və əhəmiyyət kəsb edən vəzifələr olmuşdur. 2003-cü ildən başlayaraq İlham Əliyevin reallaşdırdığı və ölkənin həyatını dəyişdirən bir çox layihələr tariximizin ayrı-ayrı parlaq səhifələrini təşkil edir. Qəti əminliklə demək mümkündür ki, Azərbaycanın müasir tarixi cəmi bir nəslin həyatı ərzində baş verən möhtəşəm inkişaf və yüksəlişdən ayrılıqda təsəvvür edilə bilməz. Qarabağın işğaldan azad edilməsi ölkəmizin çoxəsrlik tarixinin ən qürurlu hadisəsi kimi onilliklər və yüzilliklər boyu yaddaşlarda yaşayacaqdır.

Qeyd olunanlar Azərbaycanın dövlətçilik tarixində əbədi olaraq İlham Əliyevə ən mötəbər fəxri yeri təmin etmişdir. Buna baxmayaraq, onun çoxşaxəli fəaliyyətində ölkəmizin yeni parlaq səhifəsini yaratmaq həvəsi aydın şəkildə müşahidə olunmaqdadır. 30 illik erməni işğalının xarabalığa çevirdiyi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, yaşamaq və çalışmaq üçün gözəl məkana çevrilməsi bu baxımdan xüsusilə diqqəti çəkir.

Azərbaycanın köklü surətdə dəyişdirilməsi, dövlətimizin iqtisadi və hərbi qüdrətinin, siyasi nüfuzunun inanılmaz dərəcədə artırılması, Qarabağın azad edilməsi, ölkənin bütövlüyünün təmin edilməsi Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əlamətdar tarixi aktivləridir. Azərbaycanın daha etibarlı, daha təminatlı, daha inamlı gələcəyə çatdırılması onun siyasi taleyinin və bioqrafiyasının yeni, əvvəlkilərdən heç də az əhəmiyyət kəsb etməyən aktivləri olmaq növbəsini gözləyən reallıqlardır.

Ölkənin müasir həyatını dəyişdirmək siyasətçilər üçün nə qədər şərəfli vəzifədirsə, onun etibarlı gələcəyini qurmaq ondan daha böyük əhəmiyyət kəsb edən tarixi missiya sayılır. Hər bir Azərbaycan vətəndaşının qürur duyduğu tarixi zəfərlərin şəksiz müəllifi olan İlham Əliyevin bügünkü fəaliyyətində məhz həmin missiyanın əlamətləri bütün aydınlığı ilə görünməkdədir. Naxçıvan və Türkiyə ilə maneəsiz nəqliyyat əlaqələrinin qurulması naminə Zəngəzur koridorunun işə salınması sahəsində sərgilənən səyləri qeyd olunan fikrin əyani misalı saymaq olar.

İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında son illər ərzində həyata keçirilən və davam etdirilməkdə olan islahatlar strategiyası Azərbaycanı sürətlə dəyişən xarici şəraitlərə və geopolitik çağırışlara hazırlamaq məqsədi daşıyır. Hədəf daha güclü və daha müasir iqtisadiyyat, daha yüksək rifah, daha möhkəm milli birlik və vətəndaş həmrəyliyi, daha səmərəli dövlət idarəçiliyi və siyasi sistem yaratmaqdadır. Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun yüksəldilməsi, bütün dünya azərbaycanlılarının birliyinin gücləndirilməsi, xalqımızın tarixi şöhrətinin dirçəlişi etibarlı gələcək anlayışının ayrılmaz tərkib hissələridir.

*Azərbaycan xalqının indiki nəsilləri əmin ola bilər və düşünürəm, əmindirlər ki, İlham Əliyevin rəhbərliyi altında ölkəmizi firavan, təhlükəsiz, rahat və parlaq hadisələrlə zəngin gələcək gözləyir. Prezident İlham Əliyevin adı həm bu günə qədər qürurla qeyd etdiyimiz möhtəşəm zəfərlərin müəllifi kimi, həm də inamla qurduğumuz etibarlı gələcəyin şəksiz memarı olaraq tariximizin qızıl səhifəsinə yazılacaq.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***